**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**VÜSALƏ ELŞAD qızı ƏFƏNDİYEVA**

# AZƏRBAYCAN – NORVEÇ ƏLAQƏLƏRİ (1991-2011-Cİ İLLƏR)

İxtisas: 5507.01 – Beynəlxalq münasibətlər tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**Bakı - 2018**

*Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Beynəlxalq Münasibətlər tarixi" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
*Əməkdar elm xadimi,* **Y.M.Mahmudov**
*Dövlət Mükafatı laureatı,*
*AMEA-nın həqiqi üzvü*

**Rəsmi opponentlər:**
*tarix üzrə elmlər doktoru, professor* **Ş.F.Fərzəliyev**

*tarix üzrə fəlsəfə doktoru, dossent* **S.F.Ruintən**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01-"Ümumi tarixi", 5503.02-"Vətən tarixi", 5507.01-"Beynəlxalq münasibətlər tarixi" və 5509.01-"Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının ___________2018-ci il tarixli iclasında, saat _____ keçiriləcəkdir.

Ünvan: Az. 1143, Azərbaycan Respublikası, Bakı ş, H.Cavid pr,115

Dissertasiya ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitunun Elmi Arxivində tanış olmaq olar.

Aftoreferat ________ 2018-ci il tarixdə göndərilmişdir.

**D.01.161.**
**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə fəlsəfə doktoru** **C.Ə.Bəhramov**

# I DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan milli tarixşünaslığı üçün elmi və siyasi əhəmiyyət kəsb edən problemlərdən biri Azərbaycan Respublikasının uğurlu xarici siyasətinin davamlı və daima inkişafda olması üçün dünyada söz sahibi olan ölkələrlərlə əlaqələrin yüksək səviyyədə təşkilini əks etdirən mövzuların tədqiqi məsələsidir. SSRİ-nin tərkibinə daxil olan digər respublikalar kimi Azərbaycan Respublikası da 70 il müstəqil xarici siyasət hüququndan məhrum edilmişdir. Məhz bu baxımdan bu problemin öyrənilməsi zərurəti tədqiqatın aktuallığını şərtləndirən ən vacib məsələlərdən biridir.

Azərbaycan Respublikası kifayət qədər mürəkkəb, eyni zamanda strateji əhəmiyyətli bölgədə yerləşdiyinə görə xarici siyasət kursunu müəyyənləşdirərkən bir tərəfdən öz milli maraqlarını qorumaq və bölgənin aparıcı dövləti statusunu saxlamaq, digər tərəfdən bölgədə maraqları olan bütün dövlətlərlə, habelə qonşularla bərabərhüquqlu tərəfdaşlıq münasibətlərini saxlamaq kriteriyalarından çıxış edir.

1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikasının siyasi rəhbərliyinə yenidən qayıtmasından sonra Azərbaycan dövlətinin xarici siyasəti yeni mərhələyə yüksəldi. Ümummilli lider Heydər Əliyev dövlətin xarici siyasətini müəyyənləşdirərkən demişdir: “Əsas vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir”.[1]

Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Azərbaycan Respublikası Avropanın, eləcə də dünyanın ayrı-ayrı dövlətləri ilə qarşılıqlı və birbaşa münasibətlər yaratmağa başladı. Ölkənin xarici siyasət xətti formalaşdı. Digər dövlətlərlə münasibətlərin beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurulması

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. 45 clddə, I c., Bakı: “Azərnəşr”, 1997, s. 205.

1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində öz əksini tapmışdır.[2] Azərbaycan Respublikası Avropa və Avroatlantik strukturlara inteqrasiyanı xarici siyasətinin əsas prioriteti elan edərək bu sahədə dövlətlərarası münasibətləri ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verən vasitə kimi qiymətləndirmişdir.[3]

Azərbaycan dövləti həm qonşuluq siyasətində, həm də digər region ölkələri ilə olan münasibətlərində balanslaşdırılmış siyasət yürütməkdədir. Avropa İttifaqı ilə davamlı münasibətlərin qurulması və inkişaf etdirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən biridir. XX əsrin sonlarında mövcud olan beynəlxalq münasibətlər sistemində Avropa ölkələrinin rolu və təsir dairəsi önəmli yer tutduğundan, Azərbaycan Respublikası da öz xarici siyasətində bu dövlətlərlə, o cümlədən Skandinaviya yarımadasında yerləşən Norveç Krallığı ilə çoxtərəfli əlaqələrin yaradılması və inkişaf etdirilməsinə xüsusi diqqət yetirir. Bununla əlaqədar olaraq, ölkəmizin həmin istiqamətdə atdığı addımların elmi araşdırılması, əldə olunmuş nəticələrin obyektiv təhlil edilməsi və gələcək perspektivlərin düzgün qurulmasına köməklik göstərə biləcək praktiki tövsiyələrin işlənib hazırlanması aktuallıq kəsb edir.

Norveç Krallığı ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyasını sürətləndirən amillərdən biri kimi diqqəti cəlb edir. Hər iki ölkənin neft istehsalına malik olması bir çox sahələrdə maraqların vəhdət təşkil etməsilə müşahidə edilir. Bu ölkə ilə qarşılıqlı əlaqələrin formalaşaraq inkişafı da əsasən bu amillə bağlıdır. Digər tərəfdən, Avropanın nüfuzlu və iqtisadi cəhətdən inkişaf etmiş ölkəsi olan Norveçin azad bazar münasibətlərinin formalaşması, demokratiyanın inkişaf etdirilməsi sahəsində topladığı tarixi təcrübə ilə yaxından tanışlıq ölkəmizin bu istiqamətlərdə fəaliyyətinə müəyyən fayda gətirə bilər.

Azərbaycan-Norveç əlaqələrinin müxtəlif istiqamətləri ilə bağlı indiyədək müəyyən tədqiqatlar aparılsa da, bu sahədə kifayət qədər

---

[2] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Qanun", 2011, s. 7.

[3] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası.2007, 23 may/ http://www.mns.gov.az/img/3766779-5ml.02%20 Milli-Təhlükəsizlik-Konsepsiyası.pdf.

öyrənilməmiş məsələlər hələ də mövcuddur. Onların araşdırılması, yeni fakt və materialların dövriyyəyə gətirilməsi, şərh və təhlil edilməsi vacibdir.

Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin çox mühüm istiqamətlərindən biri olan Skandinaviya ölkələri, xüsusilə Norveç ilə çoxtərəfli əlaqələrin yaranması və inkişafı prosesini izləmək, onu şərtləndirən əsas mərhələləri ayırd etmək ilə müasir vəziyyətini qiymətləndirmək üçün müvafiq nəticələr çıxarmaq, bu sahədəki fəaliyyəti səmərəli edə biləcək müəyyən düzəlişlər etməyə imkan verir.

Nəticə etibarilə, movzunun aktuallığını şərtləndirən çox mühüm bir məqam onun indiyə qədər elmi-siyasi ədəbiyyatda xüsusi tədqiqat obyekti olmamasıdır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiyanın xronoloji çərçivəsi XX əsrin 90-cı illərindən XXI əsrin əvvəllərinə qədər olan dövrü əhatə edir. Belə bir xronoloji çərçivənin seçilməsi bir sıra amillərlə bağlıdır. Bu, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsindən sonra başlanan qarşılıqlı münasibətlərin yeni səviyyəyə çıxdığı 2011-ci ilədək olan dövrdə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf dinamikasını və əhəmiyyətini izləməyə imkan verir.

Problem xronoloji çərçivəyə uyğun araşdırılmış və tədqiq edilmişdir. Yalnız I fəslin 1-ci və 2-ci yarımfəsillərində ("Azərbaycan-Norveç yazı mədəniyyəti və Orxon-Yenisey yazıları", "Orta əsrlərdə skandinaviyalıların Azərbaycana yürüşlərdə iştirakı") problemin tarixi kökləri ilə bağlı məlumat vermək üçün müəllif xronoloji çərçivədən daha irəli getmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Dissertasiya işi yazılarkən müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin mahiyyəti və vəzifələrini araşdıran aşağıdakı ədəbiyyatlardan geniş istifadə olunmuşdur:

Akademik Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri"[4] adlı əsəri dissertasiya işinin tədqiqində xüsusi əhəmiyyətə malikdir. Əsərdə müasir dövrdə qloballaşan dünyanın

---

[4] Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri: Keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: "XXI-Yeni nəsil Nəşrlər Evi", 2005, 464 s.

reallığı olan modernləşmənin Azərbaycan cəmiyyətinə təsiri araşdırılmışdır. Ölkədə sosial-iqtisadi və siyasi islahatların keçirilməsində, ümumilikdə yüksək inkişafa nail olunmasında Qərb konsepsiyalarından istifadənin yolları və bunun məqbulluq səviyyəsi ətraflı təhlil olunmuşdur. Bu təhlillər Norveç Krallığı ilə Azərbaycan Respublikasının qarşılıqlı münasibətlərinin inkişaf perspektivlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının xarici siyasəti və Avropa ölkələri ilə münasibətlərini işıqlandıran Əli Həsənovun əsərləri böyük elmi maraq doğurur. Onun 1998-ci ildə çap etdirdiyi "Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)"[5], 2000-ci ildə nəşr etdirdiyi "Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996)"[6] monoqrafiyalarında və 2005-ci ildə işıq üzü görmüş "Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın xarici siyasəti"[7] adlı dərsliyində Azərbaycan Respublikasının müstəqillik dövründə həyata keçirdiyi xarici siyasət kursunun əsas istiqamətlərindən biri olan Avropa dövlətləri və ABŞ ilə diplomatik münasibətlərin, qarşılıqlı əlaqələrin yaradılması və inkişafına yönəlmiş siyasət tədqiq edilmişdir. Bu əsərlərdə Azərbaycan Respublikasının müstəqil xarici siyasətinin əsas vəzifələri, prinsipləri və istiqamətləri araşdırılmışdır. Azərbaycan dövlətinin xarici siyasətində Avropa ölkələri ilə münasibətlərin önəmli yer tutduğu vurğulanmış və ölkəmizin 1991-1995-ci illərdə Norveç Krallığı ilə iqtisadi və siyasi əlaqələrinin yaradılması və inkişafı prosesi zəngin faktlara əsaslanmaqla geniş təhlil olunmuşdur. Müəllif Azərbaycan dövlətinin Avropa və ABŞ ilə əməkdaşlığını şərtləndirən əsas amilləri araşdırarkən Skandinaviya ölkələri ilə də əlaqələrin yaradılması və inkişaf etdirilməsinin zəruriliyini və ölkəmiz üçün xüsusi maraq kəsb etdiyini qeyd etmişdir. Lakin bu əsərlərdə Norveç Krallığı ilə Azərbaycan Respublikası arasında elmi-texniki, mədəni və humanitar sahələrdə əlaqələrə

---

[5] Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı:"Azərnəşr",1998, 300 s.
[6] Həsənov Ə.M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: "Elm", 2000, 368 s.
[7] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Bakı: "Azərbaycan nəşriyyatı", 2005, 752 s.

toxunulmamış, əsasən siyasi və iqtisadi əməkdaşlıq məsələləri ümumi kontekstdə araşdırılmışdır.

AMEA-nın həqiqi üzvü Yaqub Mahmudovun 2011-ci ildə qələmə aldığı "Heydər Əliyev ideyalarının zəfər yürüşü" [8] adlı monoqrafiyasında Ümummilli lider Heydər Əliyevin şəxsiyyəti, zəngin irsi, dövlətçilik ideyaları, bu ideyaların davamçısı olan Prezident İlham Əliyevin daxili və xarici siyasəti araşdırılıb. Bundan əlavə, Yaqub Mahmudovun 2005-ci ildə işıq üzü görmüş "Azərbaycan: qısa dövlətçilik tarixi"[9] adlı kitabında Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qazanılması və möhkəmləndirilməsi sahəsindəki roluna və xidmətlərinə, Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlətə çevrilməsinə yönəldilmiş islahatlara xüsusi diqqət yetirilir.

Yaqub Mahmudovun 2008-ci ildə çap etdirdiyi "Azərbaycan tarixi: erkən intibah dövrü: IX əsrin ikinci yarısı - XIII əsrin əvvəlləri" [10] adlı kitabında ərəb xilafətinin süqutundan sonra Azərbaycanda yerli dövlətlərin yaranması ilə başlanmış siyasi, iqtisadi və mədəni dirçəlişdən bəhs olunur. Müəllif "Kitabi-Dədə Qorqud" dastanının bütün ölkə ərazisində yayılması və Azərbaycan xalqının təşəkkülü ilə başlanmış və XIII əsrin əvvəllərinədək davam etmiş bu oyanış dövrünü ilk dəfə olaraq Azərbaycan tarixinin erkən intibah dövrü kimi qələmə almışdır.

Bununla yanaşı, Yaqub Mahmudovun 1992-ci ildə yazdığı "Rusların Bərdəyə hücumu" adlı elmi məqaləsində rusların Azərbaycana basqınları, regionun qədim paytaxtı, zəngin ticarət və sənətkarlıq mərkəzi olan Bərdəni ələ keçirmələri və "Bərdə faciəsi"ndən sonra şəhərin zəifləməsi, burada sənətkarlıq və ticarətin tənəzzülə uğraması da təhlil olunur.

Azərbaycan Respublikasının Skandinaviya ölkələri ilə əlaqələrinin tədqiq edilməsində Xəyyam İsmayılzadənin "Azərbaycanın Skandinaviya dövlətləri ilə əlaqələri" adlı dissertasiyası uğurlu addımdır. [11] Bu dissertasiyada Azərbaycan

---

[8] Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı: "Təhsil", 2011, 608 s.

[9] Mahmudov Y.M. Azərbaycan qısa dövlətçilik tarixi. Bakı: "Təhsil", 2005, 140 s.

[10] Mahmudov Y.M. Azərbaycan tarixi: "Erkən intibah dövrü:IX əsrin ikinci yarısı-XII əsrin əvvəlləri. Bakı: "Aspoliqraf", 2008, 128 s.

[11] İsmayılzadə X. Azərbaycanın Skandinaviya dövlətləri ilə əlaqələri. Siyasi elm. üzrə

Respublikasının Şimali Avropa ölkələri olan İsveç, Norveç, Finlandiya və Danimarka ilə çoxtərəfli əlaqələri və əməkdaşlığı, Azərbaycan Respublikası ilə bu ölkələr arasında iqtisadi əməkdaşlığın yaranması və inkişafı, həmçinin siyasi və mədəni əlaqələr geniş şərh olunmuşdur. Tədqiqat işində həmçinin Azərbaycan Respublikasının Norveç Krallığı ilə diplomatik münasibətlərinin inkişafına toxunulmuş, lakin dissertasiyanın 63-cü səhifəsində 1996-cı ilin noyabr ayında Norveçdə Azərbaycan Respublikasının səfirliyinin açılması haqqında həqiqətə uyğun olmayan məlumat yerləşdirilmişdir.

Qasım Hacıyevin 2008-ci ildə yazdığı "Bərdə şəhəri coğrafi, siyasi, mədəni tarixi"[12] adlı əsəri Azərbaycanın qədim şəhərlərindən biri, ölkənin beş əsrə qədər paytaxtı olmuş, 2500 ildən artıq yaşı olan Bərdənin tarixinə həsr edilmişdir. Təqdim olunan bu əsərdə Azərbaycanın qədim torpağı olan Qarabağ bölgəsində yerləşən Bərdə şəhərinin yaranması və inkişafına dair yeni materialların da daxil edildiyi antik, orta əsrlər və yeni dövr (e.ə. IV əsr – b.e. XIX əsri) tarixi əks olunur. Bu kitabda həmçinin X əsrdə rusların Azərbaycana yürüşləri, Bərdə şəhərinin ruslar tərəfindən dağıdılması, tənəzzülü, tənəzzülə uğramış şəhərin ölkənin siyasi həyatındakı aparıcı mövqeyini itirməsi və Bərdəyə gəlmiş qoşunun normanlar və yaxud skandinaviyalılar olması barədə də maraqlı məlumatlar öz əksini tapmışdır.

Hazırkı dissertasiyanın müəllifinin 2009-cu ildə Norveç Krallığının Azərbaycan Respublikasındakı səfirliyinin dəstəyi ilə ingilis dilindən Azərbaycan dilinə tərcümə etdiyi norveçli müəlliflər Stenersen Öivin və İvar Libəkə məxsus "Norveç tarixi buz dövründən bu günə kimi"[13] adlı kitab dilimizdə Norveç tarixi ilə bağlı yeganə əsər olduğundan çox önəmlidir. Bu kitab Norveç tarixinin əsas dövrlərini əhatə edir və oxuculara Norveç tarixi haqqında geniş məlumat verir.

İslandiya Universitetinin Yaxın Şərq Mərkəzinin direktoru Thorir Jonsson Hraundalın 2013-cü ildə ingilis dilində yazdığı "The Rus in Arabic Sources: Cultural contacts and Identity" ("Ərəb

---

fəlsəfə dok. dissertasiya işi. Bakı, 2011, 148 s.

[12] Hacıyev Q.Ə. Bərdə şəhəri coğrafi, siyasi, mədəni tarixi. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı: "Uniprint", 2008, 250 s.

[13] Stenersen Ö. Libək İ. Norveç tarixi buz dövründən bu günə kimi (tərcümə edən V.Əfəndiyeva), Bakı: "İndigo" 2009, 187 s.

mənbələrində Rus: Mədəni əlaqələr və kimlik")[14] adlı dissertasiya işi ərəb mənbələrində təsvir olunmuş şərqə yürüşlər edən skandinaviyalar haqqında qiymətli tədqiqat hesab oluna bilər. Bu dissertasiyada vikinqlərin şərqə ekspedisiyaları, onların Rus torpaqlarında hökmranlığı, Qərbi Rus torpaqlarının böyük şəhərlərinin məhz vikinqlər tərəfindən salınması və beləliklə də, onların Rus dövlətinin əsasını qoymaları haqqında maraqlı faktlar var. Burada, həmçinin, rusların mənşəyi, türk tayfaları ilə əlaqələri, müxtəlif ərəb tarixçilərinin onlar haqqında yazdıqları, skandinaviyalıların şərq tayfaları ilə mədəni-ticari əlaqələrini sübut edən arxeoloji qazıntılar haqqında məlumatlar geniş şəkildə təhlil olunmuşdur.

Məşhur norveçli tədqiqatçı və səyyah Tur Heyerdal ömrünün son illərində marağını Azərbaycana yönəltmiş və onun dünya mədəniyyətinin beşiyi olduğunu göstərən nəzəriyyə ərsəyə gətirmişdir. O, Azərbaycanla bağlı fikirlərini Betty Blairin redaktorluq etdiyi "Azerbaijan İnternational" jurnalında çap etdirirdi. 1995-ci ildə həmin jurnalda çıxmış məqaləsi "The Azerbaijan Connection: Challenging Euro-Centric Theories of Migration" ("Azərbaycanla əlaqə: Avrosentrik miqrasiya nəzəriyyələrinə yeni baxış") adlanır. Məqalədə avrosentrik baxışlara yeni nəzər yetirən alim qeyd etmişdir ki, sivilizasiyanın mərkəzi Avropa deyil, məhz Azərbaycan olmuş və onun erkən mədəniyyəti qədim dənizçilər vasitəsilə ucqarlara yayılmışdır.[15]

Tur Heyerdalın isveçli xəritəçəkən Per Lillieström ilə birgə "Odin nəzəriyyəsi" ilə bağlı 1999-cu ildə "İngen grenser" ("Sərhədsiz")[16] və 2001-ci ildə "Jakten på Odin" ("Odinin axtarışında: Keçmişimizin izi ilə")[17] adlı iki kitab yazmışdır. Bunlardan birincisi olan "Sərhədsiz" kitabında yazıçı vikinqlərin səyahətlərindən bəhs edir. "Odinin axtarışında: Keçmişimizin izi ilə" adlı ikinci kitab məşhur islandiyalı tarixçi Snorri Sturluson tərəfindən qələmə alınmış və vikinq dövrü üçün əsas tarixi mənbə hesab olunan

[14] Hraundal J.T. The Rus in Arabic Sources: Cultural Contacts and Identity, phd dissertation. University of Bergen, 2013, 211 p.
[15] Heyerdahl T. The Azerbaijan Connection: Challenging Euro-Centric Theories of Migration, Azerbaijan International, Spring 1995 (3:1), pp. 60-61, new edition 2011, pp. 48-55.
[16] Heyerdahl T., Lilleström P. Ingen grenser. Oslo, 1999, 395 s.
[17] Heyerdahl T., Lilleström P. Jakten På Odin/ På sporet av vår fortid. Oslo, 2011, 319 s.

“Heimskringla”[18] və ya “Norveç krallarının tarixi” adlı əsərinin təsviri ilə başlayır. Bu əsərdə müəlliflər iddia edir ki, Snorri müasir alimlər tərəfindən ciddi qəbul olunmur. Norveç dilində yazılmış bu kitabların hər ikisi Heyerdal və Lilliesröm arasındakı qədim tarixi mənbələrə yeni şərhlərin verilməsi ilə bağlı müzakirələrdən ibarət dialoq formasında qələmə alınmışdır.

Oslo Universitetinin dossenti Vibeke Roggenin elmi redaktorluğu ilə 2014-cü ildə Norveçdə ingilis dilində çap edilmiş “Thor Heyerdahl’s search for Odin: Ancient links between Azerbaijan and Scandinavia?” (“Tur Heyerdal Odinin axtarışında. Azərbaycan ilə Skandinaviya arasında qədim əlaqələr?”)[19] adlı kitab Tur Heyerdalın Azərbaycanla bağlı ərsəyə gətirdiyi nəzəriyyəni araşdırmaq baxımından maraqlıdır. Adı çəkilən kitabda Heyerdalın Azərbaycan Respublikasına səfərləri, Azərbaycanla bağlı “Odin nəzəriyyəsi”, Azərbaycanın qədim abidəsi olan Qobustan qayaüstü rəsmləri ilə Norveçə məxsus qayıq rəsmləri arasında oxşarlıq və fərqliliklər, ərəb mənbələrində skandinaviyalılar, türk və Skandinaviya dastanlarında mifik fiqurlar, Gəmiqaya və Alta petroqlifləri, Heyerdalın linqvistik arqumentləri və Qafqaz-Skandinaviya xalq musiqisində oxşarlıqlar və s. haqqında maraqlı məlumatlar və faktlar yer tapmışdır. Onu da qeyd etmək lazımdır ki, təqdim olunan dissertasiya işinin müəllifinin “Thor Heyerdahl’s role in the development of relations between Norway and Azerbaijan” (“Azərbaycan Norveç əlaqələrinin inkişafında Tur Heyerdalın rolu”) adlı məqaləsi də adı çəkilən kitabda çap olunmuşdur.

Yuxarıda qeyd olunan və digər tədqiqatların mühüm elmi əhəmiyyətini vurğulamaqla yanaşı, göstərmək lazımdır ki, Azərbaycan Respublikasının Norveç Krallığı ilə tarixi, iqtisadi, siyasi, mədəni, humanitar əlaqələrini kompleks şəkildə araşdıran xüsusi tədqiqat əsəri yoxdur. Bütün bunları və problemin elmi-nəzəri və praktiki əhəmiyyətini əsas götürərək dissertasiya işində Azərbaycan dövlətinin xarici siyasətinin bu konkret istiqamətinin təhlil edilməsinə cəhd göstərilmişdir.

[18] Sturluson S. Heimskringla: History of the Kings of Norway. Texas,1995, 854 p.
[19] Roggen V. (ed.). Thor Heyerdahl’s search for Odin: Ancient links between Azerbaijan and Scandinavia?, Oslo: “Novus Press”, 2014, 399 p.

**Tədqiqatın mənbə bazası.** Tədqiqat işində qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün çoxlu sayda mənbələrə müraciət edilmişdir. Həmin mənbələri bir neçə qrupa bölmək olar: çap olunmuş rəsmi sənədlər; mövzunun öyrənilməsi üçün əhəmiyyətli olan ilk mənbələr; arxiv materialları; dövrü mətbuat və internet resursları.

Çap olunmuş rəsmi sənədlərə ölkə rəsmilərinin görüşləri və qarşılıqlı səfərləri, iki dövlət arasında imzalanmış müqavilə və sazişlər, onların təsdiqi haqqında sərəncamlar aiddir. Bu baxımdan Xarici İşlər Nazirliyinin nəşr etdiyi "Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi" çoxcildli kitablar 2001-ci ildən 2009-cu ilə qədər iki dövlət arasında imzalanan sənədlərin, hüquqi-normativ bazasının öyrənilməsində əhəmiyyətli olmuşdur.[20]

Azərbaycan Respublikası dövlət xadimlərinin əsərlərinə ölkə başçılarının, xarici işlər nazirlərinin, parlament sədrlərinin və digər rəsmilərin qarşılıqlı səfərləri zamanı söylədikləri nitq, çıxış və müsahibələri aiddir. "Müstəqilliyimiz əbədidir"[21] çoxcildli kitablarda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici ölkələrə, o cümlədən Norveç Krallığına səfəri zamanı və müxtəlif tədbirlərdə söylədiyi nitqləri öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İnkişaf məqsədimizdir"[22] çoxcildli kitablarında ölkə başçısının xarici ölkələrə

---

[20] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə. AR XİN, Bakı: "Qoliaf Nəşriyyat Evi", 2010, 1124 s.; 2003. I hissə. AR XİN, Bakı: "Qoliaf nəşriyyat Evi", 2010, 668 s.; 2003. II hissə. AR XİN, Bakı: "Qoliaf Nəşriyyat Evi", 2010, 672 s.; 2005. II hissə. AR XİN, Bakı: "GARİSMA MMC", 2009, 688 s.; 2007. II hissə. AR XİN, Bakı: "GARİSMA MMC", 2009, 1040 s.; 2008. I hissə. AR XİN, Bakı: "GARİSMA", 2009, 656 s.; 2008. II hissə. AR XİN, Bakı: "GARİSMA MMC", 2008, 440 s.;

[21] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar: 45 cilddə, I c., Bakı: "Azərnəşr", 1997, 606 s.; II c. Bakı: "Azərnəşr", 1997, 604 s.; V c. Bakı: "Azərnəşr", 1998, 500 s.; VIII c. Bakı: "Azərnəşr", 1998, 520 s.; IX c. Bakı: "Azərnəşr", 2000, 466 s. ; XII c., Bakı: "Azərnəşr", 2004, 432 s.; XIV c. Bakı: "Azərnəşr", 2005, 520 s. ; . XV c. Bakı: "Azərnəşr", 2005, 528 s. ; XV c. Bakı: "Azərnəşr", 2005, 528 s. ; XVI c. Bakı: "Azərnəşr", 2005, 552 s; XXXVIII c. Bakı: "Azərnəşr", 2011, 480 s.

[22] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər/ bur.məsul R.Ə.Mehdiyev. XII kitab:avqust 2005-sentyabr 2005, Bakı: "Azərnəşr" 2013, 400 s.; XVI kitab: mart 2006 – may 2006, Bakı: "Azərnəşr" 2014, 376 s. ; XVII kitab: may 2006 – iyun 2006, Bakı: "Azərnəşr", 2014, 392 s.; XXIV kitab: aprel 2007 - iyun 2007, Bakı: "Azərnəşr", 2015, 408 s.;

rəsmi səfərləri zamanı, həmçinin ölkəmizə gələn xarici dövlət və hökumət rəhbərləri, siyasi xadimlər, nümayəndə heyətləri ilə görüşləri, nitq və çıxışları, nüfuzlu mətbuat orqanlarına verdiyi bəyanat və müsahibələri, müraciət və məktubları geniş yer tutmuşdur.

Azərbaycan Respublikası və Norveç Krallığı arasında muzeylərarası əlaqələr və əməkdaşlığın öyrənilməsində Norveçin Stavanger şəhərinin Arxeologiya Muzeyinin cari arxiv materiallarından istifadə edilmişdir.[23]

Bundan əlavə, Azərbaycan Dillər Universitetinin cari arxiv sənədləri ADU ilə Norveç Krallığının Oslo və Aqder universitetləri arasında əməkdaşlığın hüquqi-normativ bazasının öyrənilməsi baxımından əhəmiyyətli olmuşdur.[24]

Azərbaycan Respublikasında fəaliyyət göstərmiş humanitar təşkilatlar olan Norveç Qaçqınlar Şurası və Norveç Humanitar Müəssisəsinin hesabatları iki ölkə arasında humanitar əməkdaşlığı araşdırmağa imkan vermişdir.[25]

Dissertasiya işi yazılarkən hər iki ölkənin rəsmi dövlət saytlarına da müraciət olunmuşdur.

İstifadə olunmuş bütün bu mənbələrin tədqiqata cəlb edilməsi, məlumatların sistemləşdirilməsi problemin tam mənzərəsini yaratmağa və dəqiq araşdırmalar aparmağa imkan vermişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi 1991-ci ildən 2011-ci ilədək Azərbaycan Respublikası ilə Norveç Krallığı arasında əməkdaşlıq sahələrini, onların əsas forma və istiqamətlərini, həyata keçirilmə prosesini sistemli şəkildə araşdırmaq,

---

XXX kitab: aprel 2008 – iyun 2008, Bakı: "Azərnəşr", 2016, 408 s.; XXXI kitab: iyun 2008 – avqust 2008, Bakı: "Azərnəşr", 2016, 392 s.; XXXVI kitab: aprel 2009 – iyul 2009, Bakı: "Azərnəşr", 2016, 400 s.

[23] Collaboration project between museums in Azerbaijan and Norway. Final report. 2008, 18 p. // Norveç Krallığının Stavanger şəhərində yerləşən Stavanger Arxeoloji Muzeyinin Cari Arxivi.

[24] Project description 2010-2013. Program for Scandinavian studies at Azerbaijan University of Languages, Baku-Phase 2// Azərbaycan Dillər Universitetində fəaliyyət göstərən Skandinaviya Mərkəzinin Cari Arxivi. Hesabat 2010-2013, 13 s.

[25] Norwegian Refugee Council. Evaluation report. Information, Counselling and Legal Assistance Programme in Azerbaijan by Jenty Kirsch-Wood and Sevinj Amirova. March 2008, 18 p.; Norwegian Refugee Council. Long journey home. Review of NRC Activities in Fizuli district of Azerbaijan in 2004-2007. Baku, February 2008. 25 p.

şərh və təhlil etmək, ümumiləşdirilmiş nəticələr çıxarmaq və əhəmiyyətini göstərməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün dissertasiyada aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuşdur:

- Azərbaycan-Norveç yazı mədəniyyəti və Orxon-Yenisey əlifbası, skandinaviyalıların şərqə yürüşləri və türk tayfaları ilə ticarət əlaqələrinin saxlanılması, məşhur Norveç təqiqatçısı T.Heyerdalın Odin nəzəriyyəsini təhlil etməklə Azərbaycan-Norveç əlaqələrinin tarixi köklərini araşdırmaq;
- Azərbaycan Respublikasının yürütdüyü xarici siyasət nəticəsində Norveç Krallığı ilə əlaqələrin yerini və rolunu müəyyənləşdirmək və təhlil etmək;
- Azərbaycan-Norveç əlaqələrinin inkişafını izləmək və əsas mərhələləri müəyyənləşdirmək;
- Noveç Krallığı ilə əlaqələrin yaranması və inkişafının Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərində tutduğu yeri və oynadığı rolu müəyyən etmək;
- müstəqillik dövründə Azərbaycan-Norveç iqtisadi əməkdaşlığının formalaşması və inkişafını tədqiq etmək;
- enerji sahəsində əməkdaşlığın münasibətlərdə əsas amillərdən biri olmasını göstərmək;
- Azərbaycan Respublikası ilə Norveç Krallığı arasında diplomatik və siyasi münasibətlərinin formalaşmasını və inkişafını təhlil etmək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyinin dəstəklənməsi zərurətini elmi cəhətdən əsaslandırmaq;
- Azərbaycan Respublikası və Norveç Krallığı arasında mədəni və humanitar əlaqələrin inkişafını təhlil etmək və onun gələcək perspektivini müəyyən etmək;
- bu iki ölkə arasındakı mövcud elmi və universitetlərarası əməkdaşlığı təhlil etmək və onu davamlılığı üçün yardımçı ola biləcək təkliflər irəli sürmək;
- Norveç Krallığında Azərbaycan diaspor təşkilatlarının fəaliyyətini tədqiq etmək və qiymətləndirmək;
- ikitərəfli münasibətlərdə qazanılmış uğurları, həmçinin çatışmazlıqları müəyyən etmək, istifadə edilməyən imkanları aşkara çıxarmaq;
- Azərbaycan-Norveç əməkdaşlığını daha da inkişaf etdirmək üçün elmi baxımdan əsaslandırılmış praktik tövsiyələr irəli sürməkdir.

**Dissertasiya işinin metodoloji əsası.**

Tədqiqatın gedişində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində bir sıra elmi-nəzəri metodlardan istifadə edilmişdir. Belə ki, tarixi tədqiqatlar üçün qəbul olunmuş obyektivlik, tarixilik, sistemlilik, şərh, təhlil, müqayisəli təhlil, tənqidi təhlil və b. metodlardan istifadə edilmiş və ümumiləşdirilmiş elmi nəticələr çıxarılmışdır.

Tədqiqatın gedişində istifadə olunan əsas metod isə, şübhəsiz, hadisələrə analitik yanaşma metodudur ki, bu da müasir tarix üzrə tədqiqat işlərində zəruridir. Nəzərə alsaq ki, tədqiqatın mənbə bazasının müəyyən hissəsini rəsmi sənədlər, xronikalar, publisistik materiallar təşkil edir, qeyd etdiyimiz metodun vacibliyi bir daha təsdiqlənər.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi burada irəli sürülmüş məsələlərin məzmunu və xarakteri ilə müəyyən olunur və öz ifadəsini aşağıdakı konkret müddəalarda tapır:

- Azərbaycan Respublikası ilə Norveç Krallığı arasında qarşılıqlı əlaqələr ilk dəfə kompleks halında araşdırılır;
- tədqiqat işində ilk dəfə olaraq Azərbaycanın beynəlxalq əlaqələri sistemində Norveç Krallığı ilə çoxtərəfli əməkdaşlığın yeri və rolu göstərilir;
- Azərbaycan-Norveç əlaqələrinin formalaşması və inkişafını təhlil edərkən əlaqələrin inkişaf prosesinin mərhələləri müəyyənləşdirilir;
- dissertasiyanın yazılışında yalnız Azərbaycan-Norveç əlaqələrini təsvir edən faktlarla məhdudlaşdırılmamış, həmçinin onlar sistemləşdirilmiş və əlaqələrin əsas istiqamətləri müəyyənləşdirilmişdir;
- diplomatik-siyasi münasibətlərin və digər sahələrdə əməkdaşlığın formaları, mahiyyəti və xüsusiyyətləri aşkarlanmışdır;
- strateji tərəfdaşlıq münasibətləri tədqiq olunaraq əməkdaşlığın konkret sahələri göstərilmişdir. Belə bir nəticə çıxarılmışdır ki, əməkdaşlığın gedişində həmin formalar təkmilləşdirilmiş və səmərəli olmuşdur;
- iqtisadi, ticari və siyasi sahələrdə bu əlaqələrin formalarının müqayisəli-təhlili verilmişdir;

- iki ölkə arasında mədəni və humanitar əlaqələr, təşkilatların hesabatlarına və müxtəlif mənbələrə istinad edilməklə hərtərəfli araşdırılmışdır;

- tədqiqat həyata keçirilərkən azərbaycan, ingilis, rus, türk dillərində olan ilk mənbələr və elmi ədəbiyyatla yanaşı, norveç dilində olan orijinal mənbələrdən, habelə elmi ədəbiyyatdan da geniş istifadə olunmuşdur ki, bu da özlüyündə yeni sənədlərin, faktların elmi dövriyyəyə gətirilməsinə köməklik olmuşdur;

- iki ölkə arasında münasibətləri daha da inkişaf etdirmək üçün elmi baxımdan əsaslandırılmış tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Təqdim edilən dissertasiya işi tədqiq olunan problem üzrə tarixi və siyasi araşdırmalar sahəsində boşluğun aradan qaldırılmasında ilk cəhddir. Tədqiqat işinin praktik əhəmiyyəti ondan ibarətdir ki, dissertasiyada çıxarılan nəticələr, irəli sürülən mülahizələr, təklif və tövsiyələr, faktiki materiallar:

-Azərbaycan Respublikası və Norveç Krallığının xarici siyasətinə dair tədqiqatlarının aparılmasında, bu mövzu üzrə ümumiləşdirilmiş əsərlərin, dərslik və dərs vəsaitlərinin yazılmasında;

- siyasi elmlər və Avropaşünaslıq-Skandinaviyaşünaslıq ixtisası üzrə kadrlar hazırlanması işində, proqramların, mühazirə mətnlərinin tərtib edilməsində;

- tarix və beynəlxalq münasibətlər mövzusunda elmi konfrans, simpozium və seminarların keçirilməsində;

- ölkəmizin xarici siyasətinin elmi-nəzəri əsaslarının təkmilləşdirilməsində, xarici əlaqələr ilə məşğul olan dövlət və qeyri-dövlət təşkilatlarının fəaliyyətində;

- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sistemində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun ”Beynəlxalq münasibətlər tarixi” şöbəsində yerinə yetirilmişdir. Dissertasiya işinin əsas müddəaları və nəticələri iddiaçının elmi-nəzəri, elmi-praktik konfranslardakı çıxışlarında, Azərbaycanda və xaricdə nəşr olunan məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 9 yarımfəsli əhatə edən 3 fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi, mənbə bazası, məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, dissertasiyanın quruluşu müəyyən edilmişdir.

Dissertasiyanın **"Azərbaycan – Norveç əlaqələri tarixindən"** adlanan I Fəsli üç yarımfəsildən ibarətdir. Bu fəsildə Azərbaycan-Norveç əlaqələrinin tarixinə ekskursiya edilərək, hər iki ölkənin əlaqələrinin tarixi kökləri araşdırılmışdır. Bu məqsədlə **"Azərbaycan-Norveç yazı mədəniyyəti və Orxon-Yenisey yazıları"** adlanan yarımfəsildə türk dünyasının yazı mədəniyyətində xüsusi yer tutan Orxon-Yenisey əlifbası və Skandinaviya runaları arasında oxşarlıqlar faktlarla təhlil edilmişdir. Yarımfəsildə həmçinin İsveç tarixinin yaradıcılarından biri olmuş, tarixçi alim Sven Lagerbrinqin təxminən 250 il öncə yazdığı kitabda isveç və türk dilləri arasındakı oxşarlıqlardan bəhs olunduğu qeyd edilmişdir. Tarixçi alimin 1764-cü ildə yazdığı "İsveç və türk dilləri arasında bənzərliklər"(Bu kitab hal-hazırda İsveçin Kral Kitabxanasında saxlanılır.) adında kitabında qeyd olunmuşdur: "Bizim əcdadlarımız Odinin yoldaşları olmuş türklərdir. Bununla bağlı əlimizdə kifayət qədər dəlilimiz var. Bəzi insanlar bizi çaşdıraraq bildirir ki, biz qotlardan törəmişik. Məni bu iddiadan sonra gözdən düşməyim belə maraqlandırmır. Hər bir halda Odin və onun tərəfdaşları türklər olmuşdur".[26] Skandinaviya mifologiyasına görə vikinqlərin əsas tanrısı sayılan Odin Asiyadan gəlmiş və Skandinaviya ərazisində məskunlaşmışdır.[27] Bu mövzuda Sven Lagerbrinq Ptolemey və Snorri Sturlason kimi məşhur tarixçilərə istinad etmişdir. İslandiya tarixçisi Snorri Sturlason Odin və onun əhalisinin "Tyrklandı" tərk edərək bura köçdüklərini bildirmişdir. Bu ölkənin isə Qafqaz sıra

---

[26] Lagerbring Sven. İsveççenin Türkçe ilə benzerlikleri. İsveçlilerin türk ataları. Tərcümə edən: Abdullah Gürgün, 2. basım, İstanbul: "Analiz Basım Yayın Tasarım Gıda", Galatasaray-İstanbul, 2010, s. 21.

[27] Sturluson S. "Excerpts: From the Sagas of the Norse Kings" in Blandingskompendium, ISSHF1530, Part 1of 2. Norwegian history, International Summer School, University of Oslo, 2009, s. 38.

dağlarının və Xəzər dənizinin şimalında yerləşdiyini göstərmişdir.[28] S.Lagerbrinq isveçlilərin türk mənşəli olduqlarını iddia etmiş və Odinin qəbiləsinin gətirdiyi türk dilinin isveç dilini zənginləşdirdiyini demişdir. Bununla da özünü sübuta yetirmək üçün 200-ə qədər türk sözünün isveç dilində istifadə olunduğunu göstərmişdir. Yarımfəsildə bu nümunələr, həmçinin Skandinaviya runaları ilə Orxon-Yenisey əlifbasının oxşar hərfləri cədvəllər əsasında qarşılaşdırılmışdır. Həmçinin qeyd olunmuşdur ki, Orxon əlifbası qədim Skandinaviya əlifbasına bənzədiyindən onu "türk runa yazısı", "runik türk yazısı" da adlandırırlar. "Futhark" adlanan əlifbada diqqət çəkən məqam isə runaların adlarının (hər bir runanın öz adı var) türk söz və adları ilə oxşar olmasıdır. Nümunə olaraq, Uruz (2-ci runa), Othilla (23-cü runa), Mannaz (20-ci runa), Algiz (15-ci runa) runaları göstərilərək bu adların türkmənşəli olmasına diqqət çəkilmiş və qədim dastanımız olan "Kitabi-Dədə Qorqud" boylarından nümunələr gətirilmişdir.

I Fəslin ikinci yarımfəslində **"Orta əsrlərdə skandinaviyalıların Azərbaycana yürüşlərdə iştirakı"** tədqiq edilmişdir. VIII əsrin sonlarından XI əsrin ortalarına kimi skandinaviyalılar Avropa tarixində mühüm rol oynamışlar. Bu müddət ərzində isveçlilər, danimarkalılar və norveçlilər ucqar torpaqlara və sahilboyu ərazilərə dəniz səyahətinə çıxırdılar. Onların ekspedisiyaları şərqdə Rusiya, cənubda Aralıq dənizi, Qara dəniz və Xəzər dənizi, şimalda Barens dənizi, qərbdə isə Amerikaya kimi uzanmışdır.[29] Bu yarımfəsildə orta əsr mənbələrinə əsaslanan və rusların skandinaviyalı olduqlarını iddia edən "Norman nəzəriyyəsi"i də təhlil olunmuşdur. Normanistlər inanırdılar ki, Qərbi Rusiyanın böyük şəhərlərini vikinqlər salmış və beləliklə də, onlar Rus dövlətinin əsasını qoymuşlar. Ehtimallara görə, "rus"sözü fin dilində "rotsi" (avarçəkənlər), yaxud qədim şimal dilində "rodr" (avarçəkmə yolu) sözlərindən törəyib.[30] Onların İsveçin Uppland ərazisində "Roslagen" adlanan yerdən gəldiyi və rus adını da həmin yerin adından götürdükləri də güman edilir.[31]

---

[28] Sturluson S. Heimskringla: History of the Kings of Norway. Texas,1995, p.13

[29] Roesdahl E. The Vikings, England, 1999, s. 277.

[30] Hraundal J. T. The Rus in Arabic Sources: Cultural Contacts and Identity. phd dissertation. University of Bergen, 2013, p.23

[31] Sawyer P. The Oxford illustrated history of the vikings. New York, 1997, pp.134-135.

Bu yarımfəsildə skandinaviyalıların IX-XII əsrlərdə Xəzəryanı ərazilərə hücumları, bu yürüşlərə müxtəlifdilli ədəbiyyatlarda verilmiş fərqli yanaşmalar və "Bərdə faciəsi" də təhlil edilmişdir. Tədqiqatçı qeyd edir ki, vikinqlər şərqə yürüş edərkən Volqa və Dnepr çayları boyunca iki mühüm su yolunun əsasını qoymuşdurlar. Onlar müxtəlif illərdə Volqa çayı ilə üzüb Xəzər dənizinə keçmiş və Azərbaycana hücum edərək sonradan (944-cü ildə) Kür çayı vasitəsilə regionun qədim paytaxtı, zəngin ticarət və sənətkarlıq mərkəzi olan Bərdəyə qədər gedib çıxmışlar.

Burada həmçinin, rusların türk tayfaları ilə mədəni-ticari əlaqələri, müxtəlif ərəb və fars mənbələrində onlar haqqında məlumatlar öz əksini tapmışdır. Yarımfəsildə qeyd olunmuş maraqlı faktlardan biri də Kiyev ruslarının rəhbərlərinin özlərini "Rus xaqanları" adlandırması ilə bağlıdır. Ehtimal olunur ki, xəzərlər və Volqa bulqarları ilə yaxşı münasibət qurmuş ruslar məhz "xaqan" titulunu onlardan götürmüşlər.

Dissertasiya işinin **"Azərbaycan-Norveç əlaqələrinin inkişafında məşhur Norveç tədqiqatçısı və səyyahı Tur Heyerdalın rolu"** adlanan üçüncü yarımfəslində isə Tur Heyerdalın Sovet İttifaqı dövründə və müstəqillik illərində Azərbaycana səfərləri, onun Norveç mifologiyaları ilə Qobustan qayaüstü təsvirlərini müqayisə etməsi və Azərbaycanla bağlı ərsəyə gələn "Odin nəzəriyyəsi" geniş şəkildə tədqiq edilmişdir.

Heyerdal 1962-ci ildə Moskvaya ilk səfəri zamanı Azərbaycan alimləri ilə də yaxşı münasibətlər qura bilmişdir. 1981-ci ildə Azərbaycan SSR-ə ilk səfəri zamanı Tur Heyerdal Qobustan petroqliflərini görəndə heyrətlənmiş, bu qayalıqları Azərbaycan xalqının keçmişi adlandırmışdır.[32] Bu səfər çox gözlənilməz idi, çünki Soyuq müharibənin daha da geniş vüsət aldığı bir dövrdə "Dəmir Pərdə" adlandırılan Qərb ölkələrindən Sovet İttifaqına çox az adam səyahət edirdi. O, ölkəmizə növbəti üç səfərini Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra həyata keçirdi.

Ümumilikdə, məşhur səyyah bir sıra kitab və məqalələrində, beynəlxalq konfrans və simpoziumlardakı çıxışlarında xarici

[32] Blair B. (ed.). Tor Heyerdal sərhədləri aşaraq, dənizləri aşaraq-Azərbaycanla əlaqələr, VII kitab tədqiqat silsiləsi, Qərb Universiteti və Azerbaijan International jurnalı: Los Angeles və Bakı, 2011, s.59.

tədqiqatçıların diqqətini Azərbaycanın zəngin tarixi keçmişinə, mədəniyyətinə, Qobustan qayaüstü rəsmlərinə yönəltmişdir.

Yarımfəsildə göstərilir ki, qədim saqalardakı məlumatları təhlil edən Tur Heyerdal ehtimal edirdi ki, hazırkı Azərbaycan xalqı və saqalarda təsvir olunan *aesirlərin* kökü eynidir. Onun nəzəriyyəsinə əsasən Qobustan petroqlifləri ilə Norveçdə aşkarlanmış qayıq rəsmlərinin motivləri arasındakı bənzərliklər heç də təsadüfü deyil. O, Azərbaycanla Skandinaviya ölkələri arasında qədim əlaqələrin mövcudluğunu sübüt etməyə çalışırdı.

Həmçinin bu yarımfəsildə Tur Heyerdalın Azərbaycana səfərləri zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşləri də öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev onunla görüşərkən qeyd etmişdir: "Xalqlarımız arasında əlaqələr getdikcə genişlənir. Bunun əsasını 1981-ci ildə sizinlə mən qoymuşam. Güman edirəm ki, XXI əsrdə bu əlaqələr inkişaf edəcəkdir".[33]

Dissertasiyanın **"Müstəqillik dövründə Azərbaycan-Norveç əlaqələrinin formalaşması və inkişafı: İqtisadi və siyasi əlaqələr"** adlanan II Fəsli iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə **"Azərbaycan Respublikasının Norveç Krallığı ilə iqtisadi əməkdaşlığı"** tədqiq edilmişdir. Bu yarımfəsildə Azərbaycan Respublikasının Norveç Krallığı ilə iqtisadi əməkdaşlığının formalaşması və inkişafı, neft-qaz layihələri çərçivəsində əməkdaşlıq, Norveçin dövlət neft şirkəti olan Statoilin Azərbaycandakı fəaliyyəti araşdırılmışdır.

Yarımfəsildə qeyd olunur ki, Avropanın inkişaf etmiş qabaqcıl dövlətlərindən olan və özünün ənənəvi bitərfliyi və sülhsevər siyasəti ilə seçilən Norveç Krallığı ilə Azərbaycan Respublikası əlaqələri ölkənin müstəqillik əldə etdiyi ilk illərdən yaradılmağa başlamışdır. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci ildən qurulmuş, 1995-ci ildə Norveç Krallığının Azərbaycan Respublikasında Baş Konsulluğu, 1998-ci ildə isə səfirliyi açılmışdır. 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Norveçə rəsmi səfərindən sonra ölkələrimizin qarşılıqlı əlaqələri daha sürətlə inkişaf mərhələsinə qədəm qoymuşdur.

---

[33] Dünyanı heyrətləndirən səyyah. "Azərbaycan" qəz., 2011, 26 oktyabr, № 231 (7375), s.3.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan-Norveç iqtisadi əməkdaşlığı yeni, daha yüksək mərhələyə qədəm qoydu. Bu müqavilə xarici investorların Azərbaycan Respublikasının iqtisadiyyatına cəlb olunmasında və beynəlxalq təcrübənin öyrənilməsində ilk addım oldu. Bu saziş Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında idi. Norveçin Statoil şirkəti də müqaviləni imzalayan əsas tərəfdaşlardan biri idi. Tədqiqat işində qeyd olunur ki, Statoil şirkəti "Azəri", Çıraq" və "Günəşli" yataqlarının işlənməsində 8,56%, Xəzərin Azərbaycan Respublikası sektorunda yerləşən ən iri qaz yatağı sayılan Şahdənizin hasilatın pay bölgüsü əsasında birgə işlənilməsində də 25,5% və Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərində 8,71% pay alaraq, Azərbaycan Respublikası ilə əməkdaşlığını daha da genişləndirdi. 1998-ci ildə Statoil şirkəti həmin sektorda yerləşən Araz-Alov-Şərq blokunun birgə işlənilməsində 15 % paya sahib oldu. Məhz bu mühüm, böyük iqtisadi əhəmiyyəti olan sahələrdə əməkdaşlıq Azərbaycan Respublikası və Norveç Krallığı arasında ikitərəfli əlaqələrin sürətlənməsinə, digər sahələrin inkişafına zəmin yaratmışdır.

Bu yarımfəsildə qeyd olunur ki, Azərbaycan Respublikası və Norveç Krallığı arasındakı iqtisadi əlaqələrdə Xəzər neftinin birgə işlənməsi əsas yeri tutsa da, əməkdaşlıq yalnız bununla məhdudlaşmır. Bu əməkdaşlıq digər sahələri də əhatə etməkdədir.

Qeyd edilməlidir ki, Azərbaycan-Norveç iqtisadi əməkdaşlığının yaranması və inkişafı respublikamızın neft sənayesində və digər sahələrdə malik olduğu böyük potensialının işə salınmasında, iqtisadiyyatımızın azad bazar münasibətlərinin inkişafı istiqamətində irəliləməsində də əhəmiyyət kəsb edir.

Dissertasiya işinin II Fəslinin ikinci yarımfəslində **"Azərbaycan-Norveç siyasi əlaqələri"** məsələləri tədqiqata cəlb olunub. Tədqiqat işində Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına ikinci siyasi rəhbərliyi (1993-2003) dövründə Azərbaycan-Norveç siyasi əlaqələrinin formalaşmasında və inkişafında qazanılmış təcrübə ümumiləşdirilmişdir. Eyni zamanda, iki ölkə arasında siyasi və diplomatik münasibətlərin inkişafı, ikitərəfli rəsmi görüşlər ətraflı tədqiq edilmişdir.

Yarımfəsildə qeyd edilir ki, milli maraqların qarşılıqlı surətdə təmin olunmasına arxalanan iqtisadi əməkdaşlıq daha da möhkəmlənərək iki ölkə arasında siyasi əlaqələrin genişlənməsinə etibarlı zəmin yaratmışdır.

Tədqiqat işində Ümummilli lider Heydər Əliyevin 24-27 aprel 1996-cı ildə Norveçə səfəri,[34] bu səfər zamanı rəsmi görüşləri, iki ölkə arasında hüquqi-diplomatik əlaqələrin əsasını qoyan imzalanmış sənədlər ətraflı işıqlandırılmışdır. Sənədlərin imzalanması mərasimindən sonrakı bəyanatında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qeyd edib: "Apardığımız danışıqlar və indi imzalanan sənədlər Norveç-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün böyük bir mərhələdir və bu Azərbaycan Respublikası, xalqımız üçün tarixi bir hadisədir".[35]

Dissertasiya işinin bu yarımfəslində 4-7 dekabr, 2007-ci ildə Osloda aparılan danışıqların vacib sayılacaq nəticəsi kimi iki ölkənin Xarici İşlər nazirlərinin imza atdığı "Azərbaycan Respublikası və Norveç Krallığı arasında dostluq münasibətləri və əməkdaşlığın daha da genişləndirilməsinə dair Birgə Bəyannamə" də işıqlandırılmışdır.

Bəyannamədə iki ölkənin regional siyasət və beynəlxalq münasibətlərə dair aktual məsələlərə eyni yanaşmaya malik olmaları ilə yanaşı, Azərbaycanla Norveçin beş prioritet sahədə əməkdaşlığı ilə bağlı atılmalı olan konkret addımlar və təşəbbüslər də öz əksini tapıb. Söhbət siyasət və təhlükəsizlik ticarət və investisiya, energetika və ətraf mühitin mühafizəsi, humanitar (təhsil, mədəniyyət, elm və vətəndaş cəmiyyəti) və nəhayət, diplomatik kadrların inkişafının artırılması sahələrindən gedir.[36]

Bəyannamədə əhəmiyyət daşıyan məsələ isə sənəddə Norveçin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin qorunması və beynəlxalq aləm tərəfindən tanınan sərhədləri çərçivəsində həllinə dəstək verməsi haqda fikirlərlərdir.

---

[34] Dahle L.G. Statoil Azerbaijan magazine. Statoil ASA, Stavanger, 2013, 8-9 p.

[35] Heydər Əliyev İrsini Araşdırma Mərkəzi. 30 Tarixi Səfər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəsmi və dövlət səfərləri (1993-2003). Bakı, 2013, s. 104.

[36] Joint Decleration on the further development of friendly relations and cooperation between the Kingdom of Norway and the Republic of Azerbaijan, Oslo, 4 December, 2007, 4 p.

Tədqiqat işinin bu yarımfəslində Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan, Avropanın çox nüfuzlu dövlətlərindən olan Norveç Krallığı ilə yüksək səviyyəli münasibətlərin yaradılması ölkəmizin Avropada siyasi imicinin formalaşması, respublikamızın Prezidenti İlham Əliyevin də ardıcıl davam etdirdiyi siyasi xətti geniş şərh olunmuşdur.

Dissertasiyanın **"Elm, Təhsil, Mədəniyyət və Humanitar sahələrdə Azərbaycan-Norveç əlaqələri"** adlanan III Fəsli dörd yarımfəsildən ibarətdir. Bu fəsildə Azərbaycan-Norveç arasında mədəni və humanitar əlaqələrin yaranması və inkişafı, elm-təhsil sahəsində əməkdaşlıq, Azərbaycan Respublikasının Norveçdəki diaspor təşkilatları olan NAYO (Norveç Azərbaycanlıları Gənclər Təşkilatı), Oslo Azərbaycan Evinin Azərbaycan xalqının mədəniyyətini, tarixini və nailiyyətlərini Norveç cəmiyyətinə çatdırmaq, iki ölkə arasında dostluq əlaqələrini möhkəmləndirmək, iqtisadi, elmi və mədəni ələaqələrin inkişafına dəstək vermək istiqamətindəki fəaliyyəti geniş araşdırılmışdır.

I yarımfəsil **"Mədəniyyət sahəsində əlaqələr"** adlanır. Yarımfəsildə qeyd olunur ki, mədəni əlaqələr müstəqil Azərbaycanın müasir beynəlxalq sistemindəki fəaliyyətinin ayrılmaz tərkib hissəsi olub ölkəmizin ümumbəşər sivilizasiyasına qovuşması prosesinin çox mühüm istiqamətini təşkil edir. Azərbaycan-Norveç mədəni əlaqələri hələ Sovet dövründə mövcud olmasına baxmayaraq, mədəni əməkdaşlığın dinamik inkişafı üçün şərait Azərbaycan dövləti öz müstəqilliyini bərpa etməsindən sonra yarandı.

Ədəbiyyat üzrə Nobel mükafatı laureatı, məşhur norveç yazıçısı K.Hamsun 1899-cu ildə Rusiyaya, Qafqaza və Şimali Azərbaycana səfər etmiş və 1903-cü ildə səfər təəssüratlarından bəhs edən "Nağıllar diyarında" adlı yol qeydlərini qələmə almışdır. O, burada neft Bakısı, İçərişəhər və Atəşgah haqqında da məlumat vermişdir. Hamsunun bədnam qonşularımız barəsində qələmə aldığı müşahidələri və fikirləri də maraqlıdır: "Şərqdə bizə dedilər ki, yəhudi on yunanı aldada bilər, erməni isə həm yunanları, həm də yəhudiləri aldadır."[37]

1994-cü ilin noyabrın 22-də Norveç Tədqiqat Şurası ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında elmi-texniki əməkdaşlıq məsələlərinə dair qarşılıqlı anlaşma haqqında

---

[37] Hamsun K. Seçilmiş əsərləri I cild. (tərc. Nadir Qocabəyli) Bakı, 2006, s.13.

memorandum imzalandı.[38] Həmçinin yarımfəsildə iki ölkə arasındakı mədəni əlaqələrin inkişafına təsir edən mədəni tədbirlər, mədəniyyət layihələri də öz əksini tapmışdır. Norveç və Azərbaycan arasında əməkdaşlıq incəsənətin əsas qolu olan musiqi sahəsində də özünü biruzə vermişdir. Azərbaycanlı musiqiçilər və Norveçin məşhur xoru SKRUK 1997-ci ildə "Bizim vətənimiz" (Landet vi kommer fra) adlı əməkdaşlıq layihəsi həyata keçirmişdir.[39]

Həmçinin tədqiqat işində Norveç-Azərbaycan mədəni əlaqələrinin inkişafı zəminində muzeylərarası əməkdaşlıq məsələlərindən də bəhs olunur. Qeyd olunur ki, muzeylərarası əməkdaşlığı inkişaf etdirmək məqsədilə 11 noyabr 2006-cı il – 18 aprel 2007-ci il tarixlərində Norveçin Stavanger şəhərində "Karvansaray, Azərbaycan-Odlar yurdu" adlı sərgi keçirildi.[40]

III Fəslin ikinci yarımfəslində **"Humanitar əməkdaşlıq"** məsələləri araşdırılmışdır. Yarımfəsildə qeyd edilir ki, ölkəmizin və xalqımızın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin törətdiyi ağır nəticələrə Norveç hökuməti və ictimaiyyəti biganə qalmamış, müxtəlif forma və vasitələrlə fəal yardım əlini uzatmışdır. Bu məqsədlə Azərbaycan Respublikasında Norveçin iki humanitar təşkilatı (Norveç Qaçqınlar Şurası və Norveç Humanitar Müəssisəsi) fəaliyyətə başlamışdır.

1994-cü ildən Azərbaycan Respublikasında fəaliyyətə başlamış Norveç Humanitar Müəssisəsi (NHM) ilk günlərdən uşaq evlərinə yardım göstərmiş və onların inkişafı üçün layihələr hazırlamışdır.[41]

NHM-nin fəaliyyət mexanizminə mədəniyyət abidələrinin mühafizəsi də daxildir. Görkəmli Norveç tədqiqatçısı T.Heyerdalın dəstəyi ilə Azərbaycanın ən qədim memarlıq abidələrindən biri olan Şəki rayonunun Kiş kəndindəki məbədin öyrənilməsi, bərpası və muzeyləşdirilməsinə həsr olunmuş Azərbaycan-Norveç layihəsi 2000-2003-cü illəri əhatə etmişdir.[42]

---

[38] Norveç alimləri ilə əlaqə yaradırlar. "Azərbaycan" qəz., 1994, 24 noyabr № 128 (992), s.3.

[39] Opheim S. Azerbaijan's Primal Music Norwegians Find "The land we came from". Azerbaijan International magazine, winter 1997 (5.4), pp. 19-20.

[40] Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin beş illik fəaliyyətinə dair hesabat 2006-2010, Bakı: " Xatun Plyus ", 2011, s. 20.

[41] Normisjon i Azerbaidjan. http: //www.normisjon.no/internasjonalt/ aserbajdsjan

[42] Blair B. An interview with J.B.Storfjell. The Kish Church/Digging up

Yarımfəsildə Norveç Qaçqınlar Şurasının (NQŞ) fəaliyyəti də ətraflı təhlil edilmişdir. Dissertasiyada qeyd edilir ki, Norveç Qaçqınlar Şurası Azərbaycan Respublikasında fəaliyyətə başladığı 1995-ci ildən indiyədək məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına imkan verən layihələr həyata keçirmişdir. Buraya yeni evlərin tikintisi, ictimai binaların və məktəblərin təmiri, şagirdlər üçün təlim kurslarının təşkili, onlar üçün yeni kitabların nəşri, məcburi köçkünlərin hüquqlarının müdafiəsi ərzaq və geyim əşyaları ilə təminatı daxildir. Norveçin Statoil neft şirkəti təşkilatın layihələrini daim dəstəkləyən əsas donorlardan biri olmuşdur.

NQŞ 2004-cü ilin yanvar ayından etibarən 2007-ci ilə kimi Məlumat, Məsləhət və Hüquqi Yardım (MMHY) layihəsini Azərbaycanda həyata keçirdi. MMHY-ın əsas məqsədi məcburi köçkünlərin və qaçqınların ölkə daxilində və müvəqqəti məskunlaşdıqları ərazilərdə müdafiəsinin genişləndirilməsindən ibarətdir.[43]

III Fəslin **“Təhsil sahəsində əməkdaşlıq”** adlanan üçüncü yarımfəslində Azərbaycan universitetləri ilə Norveç universitetləri arasındakı əməkdaşlıq layihələri tədqiq edilmişdir. Yarımfəsildə qeyd edilir ki, müstəqillik qazanıldıqdan sonra dövlətin siyasi və sosial-iqtisadi həyatında aparılan islahatlar və dəyişikliklər sırasında şübhəsiz ki, ən önəmli yeri təhsil islahatları təşkil edir. Bu sahədə Norveç Krallığı və Azərbaycan Respublikası arasında əlaqələr müxtəlif layihələr çərçivəsində müvəfəqiyyətlə həyata keçirilmişdir.

Təhsil sahəsində müvəfəqiyyətli layihələrdən biri də 2006-cı ildə Norveç Krallığının Aqder Universiteti ilə Azərbaycan Dillər Universiteti (ADU) arasında imzalanmışdır. Bu əməkdaşlığın nəticəsi olaraq Azərbaycan Dillər Universitetində Skandinaviyaşünaslıq ixtisası və Skandinaviya mərkəzi yaradılmışdır. Proqramın daha da geniş inkişaf etdirilməsi üçün 2007-ci ildən etibarən Oslo Universiteti də bu layihəyə qoşulmuşdur. Layihənin əsas məqsədi Azərbaycan ilə Norveç arasında təhsil sahəsində əlaqələr qurmaq və bu sahədə yenilikləri tədris sisteminə tətbiq etməkdir.

---

history/Norwegians help restore ancient church. Azerbaijan International Magazine, winter 2000 (8, 4), pp. 18-19.

[43] Məlumat, Məsləhət və Hüquqi Yardım (MMHY). Hesabat 2005-2007. Norwegian Refugee Council,“Praxis”. s.4.

2007-ci il oktyabrın 31-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) Diplomatik Akademiyası ilə Norveç Krallığının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır.[44]

Təhsil sahəsində müvəfəqiyyətli layihələrdən biri də Norveçin Tətbiqi Elmlər Universiteti (NMBU) və Azərbaycan Dövlət Aqrar Universiteti arasında "Davamlı kənd təsərrüfatı və tədqiqat üzrə akademik əməkdaşlıq" adlanan sazişdir. Əməkdaşlıq sazişi 2011-2015-ci illəri əhatə etmişdir.[45] Layihənin uğurlu nəticələrindən biri də ADAU-da yeni tədris metodları və təlimlərin tətbiq edilməsi və üç yeni magistr kursunun açılmasıdır.

Bundan başqa, Xəzər Universiteti Norveçin üç məşhur Universiteti olan Bergen, Stavanger Universiteti və Norveçin İdarəçilik Məktəbi ilə; Bakı Ali Neft Məktəbi (BANM) Norveçin Stavanger Universiteti və Trondheimdə Elm və Texnologiya Universiteti ilə uğurlu əməkdaşlıq layihələri həyata keçirmişdir.

Azərbaycan Respublikasının mədəni əlaqələrinin vacib sahələrindən biri də ədəbi əməkdaşlıq olmuşdur. Yarımfəsildə həm məşhur Norveç yazıçılarının əsərlərinin azərbaycan dilinə tərcüməsi, həm də Azərbaycan yazıçılarının əsərlərinin tərcüməsi haqqında nümunələr verilmişdir.

III Fəslin dördüncü yarımfəsli **"Azərbaycanın Norveçdəki diaspor təşkilatları"** adlanır. Yarımfəsildə Norveç Krallığında Azərbaycan diaspor təşkilatlarının ölkəmizin beynəlxalq aləmdə tanınması, maddi və mənəvi irsimizin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində apardıqları fəaliyyətləri tədqiq edilmişdir.

Belə diaspor təşkilatlarından biri də 2005-ci ildə təsis edilmiş Norveç Azərbaycanlıları Gənclər Təşkilatıdır (Norwegian Azerbaijani Youth Organization – NAYO).[46] Təşkilatın əsas məqsədi orada

---

[44] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2007, II hissə, AR XİN, Bakı: "GARİSMA MMC", 2009, s. 585.

[45] Norwegian University of Life Sciences. Report on the collaboration project between NMBU and Azerbaijan State Agricultural University. Oslo, 2015, 21 p.//Norveç Krallığının Ås mahalında yerləşən Norveçin Tətbiqi Elmlər Universitetinin (NMBU) Cari Arxivi: 2015-ci ilin yekunlarına dair hesabat. s. 3.

[46] Norveçdə Azərbaycan diaspor təşkilatları. "Olaylar" qəz., 2013, 27 noyabr, № 198, s. 15.

yaşayan azərbaycanlıların Norveç ictimaiyyətinə inteqrasiya olunmasında yardımçı olmaq, onları təşkilatlandırmaq, hüquqlarını müdafiə etmək və sosial problemlərinin həlli istiqamətində fəaliyyət göstərməkdir.

Bundan əlavə, Norveçin Oslo, Kristiansand, Stavanger, Bergen kimi şəhərlərində də NAYO-nun regional şöbələri fəaliyyət göstərir. Norveç Azərbaycanlıları Tələbə Təşkilatı (Norwegian-Azerbaijani Student Organization–NASO) isə NAYO-nun Oslo Universitetində fəaliyyət göstərən və üzvləri tələbələrdən ibarət şöbəsidir. Həmçinin 2012-ci ildə Saqane Beynəlxalq və Çoxmillətli Könüllülər Mərkəzində (SAİFF) təsis edilmiş Oslo Azərbaycan Evi təşkilatın ən aktiv qollarından hesab olunur. Norveçdə yaradılmış diaspor təşkilatlarından biri də Norveç Azərbaycan Mədəniyyət Mərkəzidir (1989-ci il). Yarımfəsildə adları çəkilən Azərbaycanın Norveçdəki diaspor təşkilatlarının fəaliyyəti, keçirdikləri tədbirlər ətraflı təhlil edilmişdir.

Dissertasiyanın **"Nəticə"** hissəsində müəllifin qənaətə gəldiyi elmi nəticələr ümumiləşdirilmiş və iki ölkə arasında əlaqələrin gələcək perspektivləri üçün elmi-praktik əhəmiyyətə malik təklif və tövsiyələr irəli sürülmüşdür:

-Azərbaycan-Norveç əlaqələrinin tarixi köklərini, məşhur norveçli tədqiqatçısı Tur Heyerdalın Azərbaycanla bağlı "Odin nəzəriyyəsi"ni tədqiq etmək üçün linqvistiklər, tarixçilər, arxeoloqlar, coğrafiyaşünaslardan ibarət tədqiqat komandası yaratmaqla geniş araşdırmalar həyata keçirmək;

-Azərbaycan Dillər Universitetində Skandinaviyaşünaslıq ixtisası fəaliyyət göstərdiyi kimi Norveç universitetlərindən birində Azərbaycan dilini, mədəniyyətini, tarixini və s. tədris edəcək Azərbaycanşünaslıq ixtisasının açılması;

-Azərbaycan və Norveç arasında mədəni əlaqələri daha da inkişaf etdirməklə ölkəmizi Norveç Krallığında layiqincə tanıtmaq üçün ən effektli təbliğat meyarı kimi xalqımızın qədim tarixi və çoxəsrlik zəngin mədəniyyətinin təbliği;

-Norveçdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ilə əlaqələrin genişləndirilməsi;

-Azərbaycan–Norveç arasında ticari əlaqələrin daha da inkişaf etdirilməsi və Azərbaycan məhsullarının Norveçə ixracının artırılması;

-Norveç Krallığı ilə yalnız neft deyil, həmçinin qeyri-neft sektorunun inkişafına dair əməkdaşlığın artırılması;

-Təhsil sahəsində əməkdaşlığın yalnız humanitar sahələri deyil, həmçinin texniki və tibbi sahələri də əhatə etməsi;

-Norveç təcrübəsindən yararlanmaqla ətraf mühitin qorunması, istifadə olunmuş məhsulların yenidən emalı ilə bağlı təcrübənin Azərbaycanda geniş tətbiq olunması.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin dərc edilmiş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Qədim türk yazılı abidələri ilə Skandinaviya runaları arasında oxşarlığa dair // AMEA, Tarix İnstitutu, Elmi əsərlər, cild 41-42-43, Bakı, 2012, s.33-48;
2. Neft gəlirlərinin Azərbaycan və Norveç iqtisadiyyatında yeri // Qafqaz Universiteti, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, Bakı, 2013, s.181-182;
3. Thor Heyerdahl's role in the development of relations between Norway and Azerbaijan // "Thor Heyerdahl's search for Odin: Ancient links between Azerbaijan and Scandinavia?" Novus Press, Oslo, 2014, s.60-69;
4. Skandinaviyalıların şərqə yürüşləri və "Bərdə faciəsi" Norveç tarixşünaslığında // Bakı Avrasiya Universiteti, Sivilizasiya jurnalı, N7, Bakı 2015, s.127-133;
5. Azərbaycan Norveç mədəni əlaqələri // "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" beynəlxalq elmi konfransın materialları. 3-5 may, I hissə, Bakı Slavyan Universiteti, Bakı 2016, s.211-213;
6. Rus raiding in the Caspian region and the Norman theory // "The Viking World-Diversity and Change", International Conference at the University of Nottingham, UK, 27 June-2 July, 2016, abstract booklet, s.66-67;
7. Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Norveçdəki Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti // Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər). III beynəlxalq

elmi konfransın materialları. 07-10 aprel 2016-cı il. Azərbaycan Respublikası, Şamaxı şəhəri. 56,57,58/ 2016, s.482-486;

8. Normanism and Odin theories claiming the contact between the East and the Scandinavia // Кавказ и мир, Международный научный журнал, Тбилиси, 2016, N 21, с. 141-145;
9. Norveçdə Azərbaycan diaspor təşkilatları // AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu, Azərbaycan Diasporu: Tarix və Müasirlik, Bakı: “Turxan”NPB, 2016, s.331-346;
10. Məşhur Norveç tədqiqatçısı və səyyahı Tur Heyerdalın Azərbaycana səfərləri və Odin nəzəriyyəsinin yaranması // Qərb Universiteti, Elmi xəbərlər, Humanitar elmlər seriyası, № 2, Bakı 2017 s. 20-27;
11. Rus raiding in the Caspian region and the Norman theory // Гілея, Науковый Вісник, Випуск 133 (№ 6), Киів, 2018, с.77-81.

**В.Е.Эфендиева**

# АЗЕРБАЙДЖАНО - НОРВЕЖСКИЕ СВЯЗИ (1991-2011 годы)

## РЕЗЮМЕ

Представленная к защите диссертационная работа посвящена изучению многосторонних отношений между Азербайджанской Республикой и Королевством Норвегии.

Диссертация состоит из введения, трех глав, девяти параграфов, заключения и списка источников и литературы.

**Во введении** обосновываются актуальность темы, хронологические рамки исследования, ее изученность, определяются источники темы, характеризуются цели и задачи, методы исследования, раскрывается новизна, а также указываются теоретическое и практическое значение исследования.

**Первая глава** диссертации называется «Об истории Азербайджано-Норвежских отношений». В данной главе был исследован и проанализирован Орхоно-Енисейский алфавит и сходство между скандинавскими рунами, нападение скандинавов на Прикаспийские регионы в IX-XII веках, «Трагедия Барда», «Норманская теория», различные подходы данные этим нападениям, визиты известного норвежского исследователя и путешественника Тур Хейердала в Азербайджан и «Теория Одина».

**Вторая глава** диссертации называется «Формирование и развитие Азербайджано-Норвежских отношений в период независимости: экономические и политические отношения». В этой главе рассматривается экономическое сотрудничество Азербайджанской Республики с Королевством Норвегии, сотрудничество в нефтегазовых проектах, деятельность норвежской государственной нефтяной компании Statoil в Азербайджане, Азербайджано - Норвежские дипломатические и политические отношения.

**В третьей главе** диссертации под названием «Азербайджано-Норвежские отношения в науке, образовании, культуре и гуманитарной сфере» исследуется культурные отношения между двумя странами, гуманитарное сотрудничество, совместные проекты сотрудничества между университетами Азербайджана и Норвегии и деятельность организаций диаспоры Азербайджана в Королевстве Норвегии.

**В «Заключение»** диссертации были обобщены научные выводы автора и были сделаны предложения и рекомендации научно-практического значения для будущих перспектив отношений между двумя странами.

**V.E.Afandiyeva**

# AZERBAIJANI - NORWEGIAN RELATIONS (1991-2011)

## SUMMARY

The presented PhD thesis describes multilateral relations between the Republic of Azerbaijan and the Kingdom of Norway.

The thesis consists of an introduction, three chapters, nine paragraphs, conclusion and the list of used sources and literature.

**In introduction** the topicality, the chronological framework of the research, the level of study, and the sources of the topic are indicated, moreover, the goals and duties, the methods of research, its scientific novelty, as well as, the theoretical and practical significance of the study are displayed.

**The first chapter** is entitled "About the history of Azerbaijani-Norwegian relations". In this chapter the similarities between the Orkhono-Yenisei alphabet and the Scandinavian runes, incursions of the Scandinavians in the Caspian region in the IX-XII centuries, various recordings on Rus' activities in this region, "Barda tragedy", the "Norman theory", visits of the famous Norwegian explorer and traveller Thor Heyerdahl to Azerbaijan and his "Theory of Odin" were explored and analysed.

**The second chapter** entitled "Formation and development of Azerbaijani-Norwegian relations in the period of independence: economic and political relations" examines the economic cooperation between the Republic of Azerbaijan and the Kingdom of Norway, their collaboration in oil and gas projects, the activities of the Norwegian state oil company Statoil in Azerbaijan, diplomatic and political relations.

**In the third chapter** entitled "Azerbaijani-Norwegian Relations in the sphere of Science, Education, Culture and the Humanitarian Affairs", cultural relations, humanitarian cooperation, collaboration projects between the universities and the activities of Azerbaijani diaspora organizations in Norway are explored.

**In Conclusion**, the author's scientific outcomes were summarized and suggestions and recommendations of scientific and practical importance were presented for the future prospects of these relations.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**ВЮСАЛЯ ЭЛЬШАД гызы ЭФЕНДИЕВА**

# АЗЕРБАЙДЖАНО - НОРВЕЖСКИЕ СВЯЗИ (1991-2011 годы)

Специальность: 5507.01 - «История международных отношений»

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**Баку - 2018**